# Fizuli Məmmədov – 70

*Azərbaycan Texnologiya Universitetinin İdarəetmə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Məmmədov Fizuli Əziz oğlu 1955-ci il dekabr ayının 21-də Gəncə şəhərində anadan olmuşdur. 1963-1973-cü illərdə Gəncə şəhəri 28 saylı beynəlmiləl orta məktəbdə təhsil almışdır. 1974-1976-cı illərdə Macarıstan Xalq Respublikasında hərbi xidmət keçmişdir. 1976-cı ildə Tikiş məmulatlarının texnologiyası ixtisası üzrə Azərbaycan Politexnik İnstitutunun Kirovabad (Gəncə) filialının Yüngül sənayenin texnologiyası fakültəsinə daxil olmuşdur.*



1982-ci ildə təyinatla Moskva Tikiş İstehsalat Birliyinə göndərilmiş və həmin müəssisədə usta, texnoloq, baş texnoloq və sex rəisi vəzifələrində çalışmışdır. Mojaysk Tikiş İstehsalat Birliyində Gənc Mütəxəssislər Şurasının sədri seçilmiş və 3 il bu vəzifəni icra etmişdir. Müəssisədə işlədiyi müddətdə iki elmi tədqiqat işi aparmış və hər birinin hesabatından sonra vəzifəsi yüksəldilmişdir.

1984-cü ildə müəssisə rəhbərliyinin razılığı ilə Moskva Yüngül Sənaye Texnologiyası İnstitutunda təşkil olunmuş dissertantlar qrupuna qəbul edilmişdir. Bir il həmin qrupda təhsil almış, fəlsəfə və ingilis dili fənləri üzrə namizədlik minimumu imtahanlarını əla qiymətlərlə vermişdir. 1985-ci ildə məqsədli əyani aspiranturaya qəbul olunmuşdur. Mojaysk tikiş İB-də məxfi sənədlərlə işlədiyinə görə ona məxfi qrif verilmiş və bu status aspiranturada təhsil aldığı dövrdə də qüvvədə qalmışdır.

Namizədlik dissertasiya işinin mövzusu hərbi geyimlərin hazırlanma texnologiyasına həsr olunduğundan elmi tədqiqat işi məxfi qrif altında aparılmışdır. Eyni zamanda bu iş SSRİ Müdafiə Nazirliyinin sifarişi ilə Dövlət Standartına daxil edilmişdir. 1988-ci ildə namizədlik dissertasiyasını Moskva Yüngül Sənaye Texnologiyası İnstitutunda uğurla müdafiə etmişdir.

1990-cı ildə Azərbaycan Texnologiya Universitetinə qayıtmış və assistent vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1990-1991-ci illərdə Gəncə Tikiş İstehsalat Birliyi və Gəncə Toxuculuq Kombinatı ilə 30-50 min manatlıq təsərrüfat hesablı müqavilələr imzalamış və hər iki layihənin rəhbəri olmuşdur. Mövzu "Sexdə iş yerlərinin optimal üsullarla yerləşdirilməsi" olmuşdur.

1991-ci ildə rektorun tapşırığı ilə institutda aspirantura şöbəsi yaratmış və onun ilk müdiri olmuşdur. 1992-ci ildə ilk qəbul imtahanı keçirilmiş və 4 nəfər aspiranturaya qəbul olunmuşdur. Elə həmin ildə Fizuli müəllim İnstitutun Elmi Şurasının katibi vəzifəsinə təyin edilmişdir. Bu dövrdə sənədləşmə işləri ana dilinə keçirilmiş, bir il ərzində 36 dosent və 4 professor elmi ada layiq görülmüşdür.

1993-cü il sentyabrın 1-dən kafedra müdiri vəzifəsinə irəli çəkilmişdir. 1993-cü ildən bu günə qədər 4 kafedra yaratmış və onların müdiri olmuşdur.

1992-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Ali Attestasiya Komissiyası yaradılmış və ilk sədr akademik Azad Xəlil oğlu Mirzəcanzadə təyin olunmuşdur. Elmi katib kimi hər ay onun yanında olaraq məsləhətlərini dinləmiş və o canlı əfsanədən çox şeylər öyrənmişdir. Sonra Azərbaycan AAK Rəyasət heyətinin üzvü, dünya şöhrətli iqtisadçı, akademik Ziyad Səmədzadə ilə yaxın münasibətdə olmuşdur. Onun verdiyi təklif və tövsiyələrdən bəhrələnmiş, doktorluq dissertasiyasında çoxlu müsbət düzəlişlər etmişdir.

1994-cü ildə ilk doktorluq dissertasiya işini Sankt-Peterburq Dövlət Texnologiya və Dizayn Universitetində müdafiə etmişdir. Daha sonra **"Az əmək və material sərfi ilə istehsalın təşkilinin təkmilləşdirilməsi"** mövzusu üzrə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə etmiş və 1995-ci ildə Azərbaycan AAK tərəfindən nostrifikasiya olunmuşdur.

***Bütün uğurlarında həmişə hörmətli akademik Ziyad Səmədzadənin köməyini hiss etmişdir. O, həmişə gənclərə dəstək olmuşdur. Onun tövsiyəsi və köməyi ilə bir çox alimlərlə tanış olmuşdur. Akademiklər - Asəf Nadirov, Ağasəlim Ələsgərov, Akif Musayev, Əli Nuriyev, Əli Əlirzayev, Qorxmaz İmanov, Şahbaz Muradov, professorlar - Şamil Səmədzadə, Eldar Quliyev, Eldar İbrahimov, Bəyalı Ataşov, Şamil Qafarov, Tərbiz Əliyev, Gülşən Yüzbaşıyeva, Nazim Müzəffərli, İslam İbrahimov, Arif Şəkərəliyev, İsa Alıyev, Ramiz İsgəndərov və b. ilə yaxın münasibətdə olmuşdur və bu alimlərdən çox şey öyrənmişdir. Bu alimlərdən öyrənə-öyrənə öz elmi məktəbini yaratmışdır.***

Hazırda onun rəhbərliyi ilə 20 doktorant dissertasiya işi müdafiə etmişdir. Onun xarici dövlət universitetləri ilə geniş əlaqələri vardır. Universitetdə keçirilən beynəlxalq konfranslarda həmin ali məktəblərin alimləri yaxından iştirak edirlər. Eləcə də həmin universitetlərdə təşkil olunan beynəlxalq konfranslarda və dəyirmi masalarda kafedranın əməkdaşları onlayn və oflayn qaydada məruzə edirlər.

***Məmmədov F.Ə. bir çox dissertasiya şuralarının üzvüdür. Onun respublikamızın ali məktəblərində və xarici universitetlərdə çoxsaylı doktorantları vardır. O, xarici dövlət universitetlərinin alimləri ilə müştərək elmi-tədqiqat işləri aparır. Bir çox beynəlxalq konfranslarda, simpoziumlarda, dəyirmi masalarda təşkilat komitəsinin üzvü və ya bölmə sədri olur.***

Bir çox nüfuzlu elmi jurnalların redaksiya heyətinin üzvüdür. Bu jurnallar Rusiya AAK tərəfindən təsdiq olunmuşdur. Hətta SCOPUS bazasına daxil olan "Texnologiya tekstilnoy promışlennosti" jurnalının redaksiya heyətinin üzvüdür. Elmi fəaliyyətinə görə Gürcüstan Respublikasının Biznes Elmlər Akademiyası onu 1997-ci ildə həmin akademiyanın həqiqi üzvü seçmişdir. 2015-ci ildə Avropa Mətbuat Evi onun əməyini vətənpərvər elmi işlərinə görə qızıl medalla qiymətləndirmişdir. **2020-ci ildə Rusiya Təbiət Elmləri Akademiyası F.Ə.Məmmədovu "Əməkdar elm və təhsil xadimi" fəxri adına layiq görmüşdür.**

Azərbaycan Texnologiya Universitetinin 55 illiyi ilə əlaqədar kafedrada doktorant olan 7 nəfər əməkdaşın iqtisad üzrə fəlsəfə doktoru dissertasiya işi müzakirə edilmiş, 1 nəfərin isə elmlər doktoru adı almaq üçün dissertasiya işinə baxılmışdır. Onlardan 5 nəfər dissertasiya işini müdafiə etmiş, bəziləri elmi dərəcə ilə təsdiq olunmuşdur. 2025-ci ildə onun rəhbərliyi ilə başqa universitetlərdə də müdafiə edənlər olmuşdur. 2026-cı ildə 3 doktorantın və dissertantın ilkin müdafiələri gözlənilir. Qeyd etmək lazımdır ki, müdafiə edən doktorantlar arasında dosent Məmmədova Xədicə Fizuli qızı doktorluq dissertasiya işini Azərbaycan Kooperasiya Universitetində 2025-ci ildə Dissertasiya Şurasında yüksək səviyyədə müdafiə etmişdir. **Bu günlərdə - yanvarın 28-də Xədicə xanıma iqtisad elmləri doktoru elmi dərəcəsi adı verilmişdir.**

Fizuli Məmmədovun xarici dövlət universitetləri və tanınmış şirkətlərlə geniş əlaqəsi vardır. Bunlardan A.Kosıgin adına Rusiya Dövlət Universiteti, Vitebsk Dövlət Texnologiya Universiteti, Xmelnitski Milli Texnologiya Universiteti, Kiyev Milli Texnologiya Universiteti, Daşkənd Toxuculuq və Yüngül Sənaye İnstitutu, Buxara Texnologiya Universiteti, Namanqan Mühəndislik Universiteti, Almatı Texnologiya Universiteti, Gürcüstan Texniki Universiteti, Ak. Sereteli ad. Kutaisi Dövlət Universiteti, Moskva Tikiş Sənayesi Elmi-Tədqiqat İnstitutu, Moskva Dövlət Texnologiya və İdarəetmə Universiteti, "Frant" Açıq Tipli Səhmdar Cəmiyyəti, İordaniya ticarət şəbəkələri birliyi, Kiyev ticarət şəbəkəsi, Azərbaycan-Türkiyə şirkəti, Dinçer-Carşıoğlu müəssisələr birliyi və s. misal göstərmək olar. O, eyni zamanda Kutaisi Dövlət Universitetinin əməkdaşları ilə Avropa Birliyinin qrant layihəsinin elmi məsləhətçisidir.

Məmmədov F.Ə. tərəfindən 300-dən artıq elmi məqalə dərc edilmişdir. Bu məqalələrinin 60%-dən çoxu xarici jurnallarda dərc edilmişdir. Eyni zamanda 4 monoqrafiya, 4 dərslik, 9 dərs vəsaiti dərc olunmuş, bunlardan bir qismi Rusiya AAK-ın qərarı ilə təsdiq edilmişdir. 20-dən artıq metodiki göstəriş, 40 fənn proqramı, 2 ixtira, 30 səmərələşdirici təklifin müəllifidir. Məmmədov F.Ə. QOST (əvvəl: DUİST) 27169-88 "Zabitlər üçün kitellər və mundirlər" Dövlət Standartının həmmüəlliflərindəndir.

44 günlük Vətən müharibəsində hərbçilərimiz həmin formadan istifadə edirdilər. Həmin Dövlət Standartı 1 mln. tirajla dərc olunmuşdur. Bunlardan başqa, Fizuli Məmmədovun adı "Böyük İqtisadi Ensiklopediya"ya və "Azərbaycan Respublikasının Ensiklopediyası"na daxil edilmişdir.

***Hazırda Fizuli Məmmədov Azərbaycan Texnologiya Universitetinin İdarəetmə kafedrasının müdiri vəzifəsində işləyir. İşlədiyi müddətdə o, kafedranı xaricdə və respublikamızda fəaliyyət göstərən universitetlərdə, elmi tədqiqat institutlarında, eləcə də şirkətlərdə müsbət mənada tanıtmış və onlarla iş birliyi qurmuşdur. Onun professor, müəllim və tələbələr arasında böyük hörməti vardır.***

Fizuli müəllim olduqca prinsipialdır. Özünə və rəhbərlik etdiyi kollektivin hər bir əməkdaşına qarşı tələbkardır. Onun rəhbərlik etdiyi "İnzibati idarəetmə və kommersiya" kafedrası 2017-ci ildə "İlin ən yaxşı kollektivi" adına layiq görülmüşdür. O, həmişə neqativ hallara qarşı mübarizə aparmışdır. Prof. F.Ə.Məmmədov 2021-ci il ərzində elmin inkişafında xidmətlərinə və səmərəli elmi fəaliyyətinə görə "İlin alimi" adına layiq görülmüşdür. Hörmətli Fizuli müəllim bu gün də durmadan çalışır.

Fizuli müəllimi 70 illiyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, doğma Vətənimizin tərəqqisi naminə gördüyü işlərdə uğurlar arzulayırıq.

**"İQTİSADİYYAT",**
**Azərbaycan İqtisadçılar İttifaqı**

İqtisadiyyat.- 2026.- 5-18 fevral, №5/6.- S.4.